**Məmməd Şair Adiloğlu**

# Şeirlər

QANUN NƏŞRİYYATI

# Ön söz

Abdullayev Məmməd Şair Adiloğlu 1946-cı ildə Yardımlı rayonunun Arvana kəndində anadan olmuşdur. Mərkəzi Komitənin qərarı ilə Arvana kəndi 1950-ci ildə Sabirabad rayonunun Aleksandrovka kəndinə köçürülmüşdür. Məmməd ilk təhsilini burada almışdır.

Məmməd Şair Adiloğlu 1964-1968-ci illərdə Bakıda fəhlə işləmiş, sonra Azərbaycan Dövlət Universitetini bitirmişdir.

O, 1970-ci ildən tam 42 il təhsil aldığı kənddə Şəhriyar kənd orta məktəbində Azərbaycan dili və Ədəbiyyat müəllimi işləmişdir. Hal-hazırda təqaüddədir. 2022-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

Məmməd Şair Adiloğlunun şeirlərində doğma Vətənin vahidliyi və birliyi yüksək səviyyədə tərənnüm olunur. Məmməd Şair Adiloğlunun şeirləri geniş əhatə dairəsinə malikdir. Xalqın birliyi və xoşbəxtliyi, Vətənin cənubu Azərbaycanla birləşib, vahid, Böyük Azərbaycan dövlətinin yaranmasını böyük ümidlə arzu edir. Şairin şeirlərində ibrətamiz və nəsihətamiz ifadələr geniş və əhatəli surətdə ifadə olunur. Məmməd Şair Adiloğlu Dünya Sülh İttifaqının yaranmasını arzu edir!

Heçə vermə cavanlığı.
Meydan etmə yamanlığı!
İtirərsən insanlığı,
Adın çıxar yamanlıqda!

Öldürür insan-insanı!
Kim çıxıb başa dünyanı?
Həyat inqilab meydanı,
Yaranıbsan tufanlıqda.

Yanmamış qalmadı nə kənd, nə şəhər!
Fərəhlə gəlmədi açılan səhər.
Hərbin alovunda çox yanan bəşər!
Nə qədər həyatda min dərd çəkəcək!
Sülhün İttifaqı yaransın gərək!

# Bu dünyadan mən kam aldım

Bu dünyadan mən kam aldım,
Neçə bahar yola saldım.
Çox insana kömək oldum,
İnsan kimi insanlıqda.

Heçə vermə cavanlığı,
Meydan etmə yamanlığı!
İtirərsən insanlığı,
Adın çıxar yamanlıqda!

İblis ürəyə kabusdur!
Şeytanı qəlbində susdur.
Mərdlik insana məxsusdur,
Hörmət qazan cavanlıqda.

Öldürür insan-insanı!
Kim çıxıb başa dünyanı?
Həyat inqilab meydanı,
Yaranıbsan tufanlıqda!

Təbiətin sağ-solunda,
Ülvi qüvvə var qolunda!
Zaman dayanmır yolunda,
Həyat gedir dumanlıqda!

## Məhəbbət olacaq ülvi və təmiz

Ürək sevsə yarın təmiz bir qəlblə,
Məhəbbət olacaq ülvi və təmiz.
Oxşayar yarım min şirin dillə,
Eşq də çox pak olar, ürək tər-təmiz.

Ömür sürə bilməz, baş da bədənsiz,
Gözəllik nur saçmaz zərsiz, gərdansız.
İnsan qalsa əgər yurdsuz, Vətənsiz,
Bülbül nəğmə deməz gülsüz, çəmənsiz.

Ürək dözməz bax Vətənsiz qalmağa,
Qeyrət, vicdan coşur şəhid olmağa!
Xalq qeyrətə gəldi yurdun almağa,
Coşub, dalğalanır tufandan dəniz!

Nizami qayda var, cəsur ordumda!
Düşmən yandı hərbin od-alovunda!
Təbiblər-təbibi çoxdur yurdumda,
Loğmanlar əliylə azdır dərdimiz.

Yurd azad olubdur var elləriylə,
Oxuyur nəğməsin xoş dilləriylə.
Abidə yaradan el əlləriylə,
Cənnətə dönəcək nur Vətənimiz!

## Qocalıq

İgidlik göstərib, meydan sulayan,
Gənclik təravətin solub qocalıq!
Bel əyilib, əllər əsir durmadan,
Ölümlə üz-üzə durub qocalıq!

Qocalıq olubdur sağalmaz bəla,
Cavanlıq yox olub, qayıtmaz dala.
Gəncliyin yadına hey sala-sala,
Fəal həyatından qalıb qocalıq!

Baş əsibən, əlləri də titrəyir,
Nəvə, nəticəni sevib, bəsləyir.
Ürək də dayanıb, durmaq istəyir,
Meylini ölməyə salıb qocalıq!

Yetmədi tam başa arzu, diləyi,
Soldu həyat eşqi, həyat çiçəyi.
Bütün qəlb aləmi, sevən ürəyi,
Qəmlə, kədər ilə dolub qocalıq!

Şair ürəkləri eşqə caladı.
Düşməninə od vuraraq qaladı!
Çoxlu at oynadıb, meydan suladı,
Ömür karvanını yorub qocalıq!

## Namərd qocalıq əlində!

Qayadan qopduqca hər daş,
Ay camalın itirir qaş.
Ömür sönür yavaş-yavaş,
Namərd qocalıq əlində!

Xəyalda qəlbi istəyir,
Pirə ziyarətə gedir.
O, Allaha dua edir,
Yavaş-yavaş öz dilində.

Qoca qəlbində məhəbbət,
Yaradır min cürə ülfət.
Kəbəni edir ziyarət,
Dünyanı sevən qəlbində.

Qəlb qocaldı dama-dama.
Eşqi gəlirdi ilhama,
Çox arzu yetmədi kama,
Vətənində, yurd elində.

Yaş yetərək yüzə dolub.
Dünya saralıban solub.
Ömür ona tarix olub,
Həyat var yüz yaş ilində!
Həyat var yüz yaş ilində!

# Ötrü

Yenə bülbül nəğə çəkir, o, sevdiyi güldən ötrü!
Elə də həsrətin çəkir, o, ayrı düşmüş eldən ötrü!

Qaşla zülflər yaraşır, o, gül üzlü gözəl camala,
Çatma qaş da çox çatılır, o, kəsilmiş teldən ötrü!

Könül sevsə bir-birini, bax bu dünyavi cahanda.
Ürək yanar ürək üçün, qəlb də yanar qəlbdən ötrü!

Məhəbbət şimşək tək çaxar, ürək də-ürəyi yaxar!
Baxışlar qovuşsa qəlbdən, əl darıxar əldən ötrü!

Bülbül kimi oxusa yar, gözəl nəğməsinə uyar.
Avaza o, qulaq asar, məlahətli dildən ötrü!

Həsrətdə qalmasın gərək, iki qəlbin qovuşmağı.
Hicran odu sona çatar, günlə, ayla ildən ötrü!

Göy guruldar, şimşək çaxar, nur tökülər, leysan yağar.
Şair, dərə həsrət çəkir, o, gurlayan seldən ötrü!

## Rüşvət

Zamanı xoş olan məğrur insanın,
Qanını qəltənə döndərib rüşvət!
“Artıq tamah baş yarar” düz deyiblər,
O, daş zindanlara göndərib rüşvət!

Vəzifə başında çox işi danıb,
Ömür qısa deyil, xeyli uzanıb.
Böyük ad qazanıb, hörmət qazanıb,
Tutduğu zirvədən endirib rüşvət!

Yüksək rütbəyə olubdur məsul,
Gələn bəndələri edibdir qəbul.
Tamahı çox salıb, olanı məğbul,
Məhkəmə önündə dindirib rüşvət!

Alqışla keçirib çox görüşləri,
Qəbulda olubdur get-gəlişləri.
Gizlində görülən mənfi işləri,
Saxta sənədləri bildirib rüşvət!

Alnı düyünlənir çatma qaşında,
Firavan dövründə, ömür yaşında,
Böyük ad qazanıb o, iş başında,
Həyatda diriykən, öldürüb rüşvət!